**BAKI ŞƏHƏRİ.................... RAYON MƏHKƏMƏSİNİN HAKİMİ ..............................**

XXXXXXXX nömrəli mülki iş üzrə iddiaçıların vəkili və etibarnamə əsasında səlahiyyətli nümayəndəsi … ................................................................ tərəfindən

**VƏSATƏT**

(AR MPM-in 78.2-ci maddəsi qaydasında)

İcraatınızda olan XXXXXXXX nömrəli mülki işin məhkəmə baxışına hazırlanması məqsədi ilə bəzi sübutların məhkəmənin sorğusu ilə əldə etmək zərurəti yaranmışdır. Belə ki, iş üzrə müəyyən sübutların cavabdehdə və üçüncü şəxsdə olmasına baxmayaraq, onların müvəkkilərim tərəfindən əldə olunması mümkün olmamışdır (iddiaçıların şifahi müraciətləri, vəkilin sorğuları cavabsız qalmışdır).

1. İddiaçıların tələblərinə əsasən cavabdeh əməkhaqqlarına daxil olan ödənişləri düzgün hesablamamış və nəticədə işçilərə (iddiaçılara) əməkhaqqlar üzrə borclar yaranmışdır. Əməkhaqqlarına daxil olan ödənişləri dəqiq hesablamaq üçün işçilərə iş şəraitlərinə və zərərlilik dərəcəsinə uyğun qanunla müəyyən edilmiş hansı artımların (əmsalların) tətbiq edilməsini aydınlaşdırmaq lazımdır. Bu əmsalları müəyyən etmək məqsədi ilə "İş yerlərinin attestasiyasının nəticələrinə əsasən əmək şəraitinin ağır və zərərliyinin qiymətləndirilməsi" Metodikasına əsasən işçilərin (iddiaçıların) işlədiyi ...... (yerlərdə).... əmək şəraitinin ağır və zərərlik səviyyəsindən asılı olaraq artımın (əmsalın) miqdarı haqqında məlumatın və həmin əmsalın tətbiq edilməsi üçün müvafiq əsasları əks etdirən sənədlərin əldə olunması vacibdir. Bununla bağlı tarixdə cavabdehə vəkil sorğusu göndərilmiş, lakin bu günə qədər sorğuya cavab verilməmişdir.
2. İddiaçılarla bağlanılan əmək müqavilələri məhkəməyə təqdim edilmişdi. Lakin əmək müqavilələrinə edilən dəyişikliklər İddiaçılara verilməmişdir. Halbuki işçilər özlərinə aid olan bütün məlumatları və sənədləri işəgötürən təşkilatdan almaqda haqlıdır. Əmək müqavilələrinə ........il tarixdə edilən dəyişikliklərin ikinci nüsxəsi cavabdehdədir və işçilər (iddiaçılar) dəyişikliklərin əslini əldə etmək üçün İşəgötürənə (cavabdehə) dəfələrlə şifahi və yazılı və eləcə də vəkil sorğusu vasitəsi ilə müraciət etmişdir. (Sorğuların və müraciətlərin surəti vəsatətə əlavə olunur). Cavabdeh sorğulara cavab verməmişdir.
   İşçilərə aid olan əmək müqavilələrinə edilən əlavə sazişlərin məhkəməyə təqdim olunması işin tam və hərtərəfli araşdırmasına xidmət edəcək.
3. AR MPM-nin 77.1-ci maddəsinə əsasən "Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir". Qanunun bu tələbini yerinə yetirmək üçün sübutların əldə olunması məqsədi ilə cavabdehə 2 ay bundan əvvəl rəsmi vəkil sorğuları göndərilmiş, lakin sorğulara heç bir cavab verilməmişdir. Bu o deməkdir ki, yuxarıda göstərilən sübutları müstəqil surətdə əldə etmək imkanımız tükənmişdir.
4. AR MPM-nin 78.2-ci maddəsinə əsasən "İşdə iştirak edən şəxsin işdə iştirak edən və iştirak etməyən şəxslərdən və ya orqanlardan onlarda olan zəruri sübutları müstəqil əldə etmək imkanı olmadıqda o, həmin sübutları tələb etmək barədə vəsatətlə məhkəməyə müraciət edə bilər".

Yuxarıda göstərilənləri nəzərə alaraq və AR MPM-nin 78.2-ci mad. rəhbər tutaraq,

**Xahiş edirəm:**

Hazırki mülki iş üzrə mübahisənin tam və hərtərəfli araşdırılması məqsədi ilə zəruri

sübutları əldə etmək üçün cavabdehdən **iş yerlərinin attestasiyasının nəticələrinə əsasən əmək şəraitinin ağır və zərərliyinin qiymətləndirilməsi metodikasına** əsasən iddiaçıların işlədiyi ...............(yerlərdə)....... əmək şəraitinin ağır və zərərlilik səviyyəsindən asılı olaraq artımın (əmsalın) miqdarı haqqında **məlumatın və həmin əmsalın tətbiq edilməsi üçün müvafiq əsasları əks etdirən sənədlərin** və eləcə də ............ tarixdə iddiaçıların əmək müqavilələrinə edilən əlavə sazişlərin əsli məhkəmə sorğusu ilə tələb olunsun.

Qoşma: sorğuların, müraciətlərin və poçt xəbərnamələrinin surəti

İmza: ________________________vəkil......................../ Etibarnamə əsasında iddiaçıların səlahiyyətli nümayəndəsi

Tarix: ____________________________